İPƏK YOLU, No.1, 2026, səh.5-15
https://doi.org/10.30546/SI.2026.001.1005

# REGİONAL İQTİSADİ SİYASƏTDƏ DÜZGÜN İDARƏETMƏNİN ƏSASLARI

**Rəsul Ələkbərov**

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
e-mail: alakbarovrasul@ndu.edu.az

**Xülasə.** Müasir dövrdə davamlı və balanslı iqtisadi inkişaf regional tərəqqi ilə sıx bağlıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, regional inkişaf olmadan iqtisadi sabitlik mümkün deyil. Dövlət siyasətinin əsas məqsədi əhalinin rifahını artırmaq və iqtisadi potensialı gücləndirməkdir. Bu isə elmi əsaslara söykənən regional inkişaf proqramlarının hazırlanmasını, hüquqi tənzimləməni, əmək bazarının və investisiya mühitinin yaxşılaşdırılmasını tələb edir. Mərkəzləşdirilmiş və əks-mərkəzləşdirilmiş idarəetmə modellərinin tətbiqi ilə yanaşı, regionlararası fərqlərin azaldılması da prioritetdir. Beləliklə, regional siyasət ölkənin strateji inkişaf istiqamətlərindən biridir.

**Açar sözlər:** Regional inkişaf, sosial-iqtisadi, makroiqtisadi siyasət, mərkəzləşdirilmiş idarəetmə, hüquqi tənzimləmə.

---

**FUNDAMENTALS OF PROPER GOVERNANCE IN REGIONAL ECONOMIC POLICY**

**Rasul Alekberov**
*Nakhchivan State University, Nakhchivan, Azerbaijan*

**Abstract.** In modern times, sustainable and balanced economic development is closely related to regional progress. The experience of developed countries shows that economic stability is impossible without regional development. The main goal of state policy is to increase the well-being of the population and strengthen economic potential. This requires the preparation of regional development programs based on scientific foundations, legal regulation and improvement of the labor market and investment climate. Along with the application of centralized and counter-centralized management models, reducing inter-regional differences is also a priority. Thus, regional policy is one of the strategic development directions of the country.
**Keywords:** Regional development, socio-economic, macroeconomic policy, centralized management, legal regulation.

---

## 1. Giriş

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ölkə iqtisadiyyatının möhkəm təməllər üzərində inkişafı regionların tərəqqisi olmadan mümkün deyil. Müasir dövrdə regional inkişafın əsas istiqamətlərinin formalaşdırılması və dövlət siyasətinin bu istiqamətdə səmərəli icrası, iqtisadiyyatın balanslı və davamlı yüksəlişinin vacib şərtidir.

Dövlətin iqtisadi siyasətində əsas məqsəd cəmiyyətin sosial rifahının yüksəldilməsidir. Əhalinin sosial-iqtisadi durumu isə ölkənin ümumi inkişaf səviyyəsini və məhsuldarlığını müəyyən edən əsas amillərdəndir. İqtisadi potensial nə qədər güclüdürsə, vətəndaşların maddi rifahı və həyat keyfiyyəti də bir o qədər yüksək olur. Həyat səviyyəsinin artması öz növbəsində iqtisadi artıma təkan verir, əmək məhsuldarlığını artırır və nəticədə milli gəlirin və daxili məhsulun artımına yol açır. Ölkədə sosial-iqtisadi inkişafın davamlı olması üçün effektiv tənzimləmə mexanizmlərinin qurulması önəmlidir. Qlobal təcrübə sübut edir ki, inkişaf tədbirləri müasir reallıqlara uyğun planlaşdırıldıqda, elmi əsaslarla işlənib hazırlanmış dövlət proqramları və normativ sənədlər əsasında həyata keçirildikdə daha sabit və uzunmüddətli

nəticələr əldə edilir. Bu baxımdan regional inkişaf sahəsində dövlətin iqtisadi proseslərə yönəlmiş müdaxiləsi və tənzimləmə funksiyaları xüsusi əhəmiyyət daşıyır. Regionların sosial və iqtisadi inkişafının təmin olunmasında məqsədyönlü dövlət proqramlarının rolu danılmazdır. Son illərdə bu sahədə qəbul edilmiş və icra olunan proqramlar regional iqtisadi siyasətin əsas sütunlarından birinə çevrilmişdir [10]. Belə proqramlar hazırlanarkən əsas məqsəd xarici bazarlarda rəqabətədavamlı məhsulların artırılması, əhalinin rifah səviyyəsinin yüksəldilməsi, daxili tələbatın yerli istehsal hesabına ödənilməsi və regionların iqtisadi potensialından maksimum istifadə olunması kimi hədəflər əsas götürülür. Xüsusilə, 2004-cü ildə qəbul edilən "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində atılan addımlar nəticəsində bölgələrdə iqtisadi canlanma müşahidə olunmuş, mövcud əmək ehtiyatları hərəkətə gətirilmişdir. Bu kimi proqramların tətbiqi ilə ölkənin davamlı və balanslı inkişafına təkan verən regional sosial-iqtisadi əsaslar formalaşmışdır. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın [19] həyata keçirilməsi ölkədəki makroiqtisadi sabitliyin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb etmişdir. Bu proqram sahibkarlığın fəallaşması, yeni istehsalat və təsərrüfat obyektlərinin yaradılması, iş yerlərinin açılması, infrastruktur və kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi, yoxsulluğun azaldılması və vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm nəticələr vermişdir. 2004-2008 və 2009-2013-cü illəri əhatə edən regional inkişaf proqramları çərçivəsində icra olunan tədbirlər nəticəsində bölgələrin sosial-iqtisadi inkişaf templəri daha da artmışdır. Növbəti mərhələ olan "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın tətbiqinə başlanması isə həm ölkə üzrə ümumi tərəqqiyə, həm də ayrı-ayrı regionların inkişafında yeni bir dövrün əsasının qoyulmasına imkan yaratmışdır [4].

## 2. Dövlətin regional siyasətinin formalaşdırılmasının nəzəri-metodoloji əsasları

Ədəbiyyatlarda "region" anlayışı ilə bağlı çoxsaylı və fərqli təriflər mövcuddur. Məsələn, Alayev [1] regionu məhsuldar ixtisaslaşmaya malik ərazi-istehsal kompleksi kimi təqdim edir. Nekrasov [15] isə regionu müəyyən təbii-iqlim şəraiti və təbii resurs bazası əsasında formalaşmış, xüsusi istiqamətə malik istehsal güclərinin yerləşdiyi, müvafiq texniki baza və inkişaf etmiş istehsal-sosial infrastrukturla təmin olunmuş ölkə ərazisinin geniş bir hissəsi kimi xarakterizə edir. Şimali Karolina Universitetinin professoru Vufter bölgəni, daxilində təbii və iqtisadi amillərin təsiri nəticəsində vahid iqtisadi və sosial strukturun formalaşdığı coğrafi məkan kimi təsvir edir. Beynəlxalq səviyyədə isə hər hansı bir ittifaqda iştirak edən dövlətlərin "region" hesab edilə bilməsi üçün müəyyən amillərin və ya onların bir hissəsinin mövcudluğu vacib sayılır.

Siyasi və iqtisadi aspektlərin qarşılıqlı əlaqəsi baxımından regional inkişaf paradiqmasının qarşısında duran əsas çağırışlara aşağıdakılar daxildir:

- Mərkəzi və regional siyasətlər arasında effektiv qarşılıqlı əlaqə balansının pozulması;

- Siyasi rayonlaşma ilə əlaqədar regionlararası qeyri-mütənasiblik fenomeninin kəskinləşməsi təhlükəsi;
- İqtisadi inkişaf səviyyəsinə görə regionların əhəmiyyətli dərəcədə fərqlənməsi;
- Büdcə münasibətləri sistemində regional asimmetriya [22, s.384].

Ölkədə tətbiq olunan makroiqtisadi siyasət necə yönəldilirsə, dövlətin regional siyasəti də həmin istiqamətə uyğun şəkildə həyata keçirilir. Başqa sözlə, makroiqtisadi səviyyədə müəyyən olunmuş məqsədlər regionlar üçün də əsas hədəf kimi qəbul edilir və bu məqsədlərə çatmaq üçün müvafiq tədbirlər görülür. Qeyd olunmalıdır ki, regionlar yalnız coğrafi vahidlər deyil, eyni zamanda iqtisadi fəaliyyət sahələrinin, müəssisələrin, təşkilatların, dövlət və bələdiyyə strukturlarının, eləcə də bu qurumların daxilində fərqli maraqların toqquşduğu ərazilərdir. Bu baxımdan, dövlətin regional siyasətinin hazırlanması və icrası, eyni zamanda regionların sosial-iqtisadi inkişafının təmin olunması həm zəruri, həm də çətin bir prosesdir. Beləliklə, ümummilli iqtisadi siyasətin digər sahələri ilə müqayisədə regionlarda sosial-iqtisadi inkişafı təmin edən siyasətin həyata keçirilməsi daha mürəkkəb xarakter daşıyır. Bu çətinlik həm ölkənin ümumi makroiqtisadi şəraitindən, həm də regionların özünəməxsus təbii resursları və iqtisadi imkanlarından irəli gəlir. Bu səbəbdən də ölkədə uğurlu makroiqtisadi nəticələrin əldə olunması bilavasitə dövlətin regional siyasətinin düzgün və məqsədyönlü şəkildə icrasından asılıdır [21].

## 3. Metodologiya

Regional inkişaf strategiyalarının hazırlanması yüksək səviyyəli elmi metod və texnologiyaların tətbiqini tələb edir. Bu sahədə əsas istifadə olunan texniki üsullara iqtisadi əsaslı müqayisəli xərclər analizi, multiplikativ təsirlərin araşdırılması, kompleks regional analizlər daxildir. Regional siyasətin həyata keçirilməsi baxımından önəmli institusional və hüquqi məsələlərdən biri də regional inkişaf planlarının hazırlanması və onların icrasının səmərəliliyini təmin edə biləcək düzgün idarəetmə strukturlarının və mexanizmlərinin yaradılmasıdır. Beynəlxalq praktikada bu sahədə iki əsas idarəetmə modeli müşahidə olunur: Mərkəzləşdirilmiş idarəetmə modeli - bu yanaşmada regional siyasət tam şəkildə mərkəzi hökumət orqanı tərəfindən müəyyən edilir və həyata keçirilir. Regionlardakı qurumlar isə daha çox icraedici funksiyanı yerinə yetirir. Bu model, əsasən, iqtisadi inkişaf səviyyəsi aşağı olan və keçid dövrünü yaşayan ölkələrdə tətbiq edilir [7].

Regional inkişaf strategiyalarının hazırlanması zamanı multiplikativ təsirlər (çoxaldıcı effektlər) əsas nəzəri-praktik yanaşmalardan biridir. Bu anlayış iqtisadiyyata gətirilən yeni investisiya, innovasiya və ya dövlət dəstəklərinin yalnız birbaşa nəticə doğurmaması, həm də dolayı təsirlər vasitəsilə regionun digər sahələrinə də müsbət təsir göstərməsi ilə bağlıdır. Multiplikativ təsir iqtisadi nəzəriyyədə çoxaldıcı effekt kimi tanınır. Bu, o deməkdir ki, müəyyən bir sahəyə qoyulan sərmayə yalnız həmin sahəni deyil, digər sektorları da stimullaşdırır. Buna nümunələr olaraq aşağıdakıları göstərə bilərik:

- İnfrastruktur layihəsi: Yeni yolun tikilməsi regionda tikinti sektorunu canlandırır, daha sonra ticarət, turizm və xidmət sahələrinə də müsbət təsir edir.

- Kənd təsərrüfatına dəstək: Fermerlərə verilən subsidiya kənd təsərrüfatı məhsullarının həcmini artırır, bu isə qida sənayesində və logistika sektorunda əlavə iş yerləri yaradır.

- Texnopark və innovasiya mərkəzləri: Startapların inkişafı yeni məhsullar yaradır, ixrac imkanlarını genişləndirir və regionun imicini yüksəldir.

Multiplikativ təsirlərin aşağıdakı növləri məlumdur:

- İqtisadi multiplikator. Müəyyən bir iqtisadi hadisə (dövlət xərci, investisiya, vergi azaldılması və s.) nəticəsində yaranan ümumi milli gəlirin (ÜDM) bir neçə dəfə çox artmasını ifadə edən anlayışdır. Başqa sözlə, iqtisadiyyata daxil olan 1 manatlıq əlavə sərmayə bəzən 2, 3, hətta 5 manatlıq əlavə gəlir yarada bilər. Bu, insanların istehlak vərdişlərindən, istehsalın strukturu və iqtisadi əlaqələrin gücündən asılıdır.

- Məşğulluq multiplikatoru. İqtisadiyyata qoyulan əlavə investisiya nəticəsində yaranan iş yerlərinin birbaşa deyil, dolayı yolla da artmasını göstərən göstəricidir. Başqa sözlə, bir sahədə yaradılan iş yerləri digər sahələrdə də əlavə məşğulluq effekti doğurur.

- Sosial multiplikator. İqtisadi və ya sosial sahədə baş verən bir dəyişmənin (məsələn, gəlirin, məşğulluğun, təhsilin artması) digər insan qruplarına və cəmiyyətin ümumi rifahına çoxaldıcı təsir göstərməsini ifadə edir. Yəni bir fərdin və ya qrupun rifahındakı dəyişiklik digərlərinə də "yoluxur" və nəticədə bütün cəmiyyətdə çoxalma effekti yaranır.

- İnnovasiya multiplikatoru. İqtisadiyyata tətbiq edilən yeni texnologiya, elmi nəticə və ya yeniliklərin yalnız bir sahədə deyil, digər sahələrdə də əlavə dəyər, gəlir və məşğulluq yaratma effektidir. Yəni bir innovasiya təkcə tətbiq olunduğu sektorda məhsuldarlığı artırmır, onun təsiri çoxaldıcı formada digər sektorlara da yayılır.

Regional strategiyalar hazırlanarkən iqtisadi multiplikatorun əsas rolu investisiya layihələrinin yalnız birbaşa deyil, dolayı təsirlərini ölçmək, regionun iqtisadi strukturundan asılı olaraq çoxaldıcı effektin gücünü müəyyənləşdirmək, əhalinin gəlirlərinin artması ilə yerli istehlak və xidmətlər sektorunun genişlənməsini proqnozlaşdırmaq kimi istiqamətlərdə istifadə oluna bilər. Məsələn, bir regionda yeni zavod tikildikdə, zavod özü iş yerləri açır (birbaşa təsir), işçilərin gəliri artır və ticarət, xidmət sahəsinə yönəlir (dolayı təsir), bu isə əlavə vergi gəlirləri və infrastruktur inkişafı yaradır (ikinci dərəcəli təsir).

Ən çox istifadə edilən multiplikator üsulu Keyns yanaşmasını göstərə bilərik:

$$k= 1/1-MPC$$

Burada:

- k - iqtisadi multiplikator,
- MPC (marginal propensity to consume) - sərf etmə meyli, yəni insanların əlavə gəlirdən nə qədərini xərclədiyi.

Məsələn: Əgər insanlar əlavə gəlirin 0.75-ni istehlaka yönəldirsə:

k= 1/1−0.75= 4

Deməli, dövlətin iqtisadiyyata yatırdığı 100 mln. manatlıq investisiya nəticədə 400 mln. manatlıq ümumi gəlir artımı yarada bilər.

Regional inkişaf strategiyasının hazırlanmasında kompleks regional analiz bir sıra mərhələləri əhatə edir. Regional iqtisadi analiz, ərazinin iqtisadi vəziyyətini qiymətləndirmək, güclü və zəif tərəfləri müəyyənləşdirmək, həmçinin investisiya və inkişaf üçün perspektiv sahələri göstərmək üçündür. Sosial analiz regionun insan kapitalını və sosial rifahını qiymətləndirməyə xidmət edir, iqtisadi və infrastruktur analizlərini tamamlayır. İnfrastruktur və ətraf mühit analizi regionun fiziki və ekoloji resurslarının vəziyyətini qiymətləndirməyə və davamlı inkişaf üçün əsas prioritetləri müəyyənləşdirməyə imkan verir. Mövcud siyasət və proqramların qiymətləndirilməsi regionda həyata keçirilən dövlət və özəl siyasətlərin təsirini müəyyən etmək, əvvəlki və indiki proqramların uğurlarını və çatışmazlıqlarını qiymətləndirmək üçün vacibdir.

Əks-mərkəzləşdirilmiş idarəetmə modeli - bu yanaşma çərçivəsində dövlətin mərkəzi qurumu ümumi regional inkişaf strategiyasını müəyyənləşdirsə də, bölgələr üzrə spesifik istiqamətlər və prioritetlər artıq yerli idarəetmə orqanları tərəfindən müəyyən olunur və icra edilir. Bu model, ABŞ başda olmaqla inkişaf etmiş və bir çox inkişaf etməkdə olan ölkələrdə geniş tətbiq edilir. Mərkəzləşdirilmiş modeldə idarəetmə klassik şəkildə, yəni mərkəzi qurum və ona tabe olan yerli şöbələr formasında təşkil edilir. Əks-mərkəzləşdirilmiş sistemdə isə daha çevik və səmərəli fəaliyyət göstərən regional qurumların yaradılmasına üstünlük verilir ki, bu baxımdan hazırda ən geniş yayılmış və effektiv nümunə kimi regional inkişaf agentliklərini göstərmək olar. Regionlararası balanslı inkişaf modeli zəif inkişaf etmiş bölgələrin təbii, insan və maliyyə resurslarının iqtisadi proseslərə cəlb olunması ilə əlaqədar olaraq, inkişaf etmiş ölkələrdə dayanıqlı iqtisadi yüksəlişin əsas mənbələrindən birinə çevrilmişdir. Hazırkı dövrdə də regionların paralel və bərabər inkişafı ümumi iqtisadi tərəqqiyə gedən əsas yollarından biri hesab olunur [6]. Zəif inkişaf etmiş ərazilər çox vaxt ucuz və bol əmək ehtiyatlarına, həm də zəngin təbii sərvətlərə malik olur. Bundan əlavə, bəzi hallarda onların əlverişli coğrafi mövqeyi də investisiya baxımından cəlbedici mühit formalaşdırır. Bu isə investorların diqqətini həmin regionlara yönəldir və bu bölgələrin iqtisadi dövriyyəyə daxil edilməsinə zəmin yaradır. Qeyd olunan məqamlar, yəni təsərrüfat subyektlərinin səmərəli yerləşdirilməsi, regionlardakı əmək, maddi və maliyyə imkanlarından daha effektiv istifadə edilməsi, istehsal gücünün artırılması və əhalinin rifah səviyyəsinin yüksəldilməsi məsələləri keçmiş sovet dövründə də iqtisadçılar, iqtisadi coğrafiyaçılar və digər elm sahələrinin nümayəndələrinin diqqət mərkəzində olmuşdur. Həmin dövrdə bu məsələlər, əsasən, iqtisadi rayonlar və SSRİ-yə daxil olan respublikaların inkişaf səviyyələrinin yaxınlaşdırılması kontekstində dəyərləndirilirdi. Lakin o zaman həm nəzəri baxımdan yanaşmalarda, həm də praktik tədbirlərin icrasında ciddi çətinliklər mövcud idi [17]. Müasir mərhələdə isə regionların balanslı inkişafının təmin olunması ölkədə həyata keçirilən regional siyasətin ədalətli və effektiv olmasının əsas göstəricilərindən birinə

çevrilmişdir. Bu yanaşma, iqtisadi inkişafla bağlı bir sıra fundamental məsələlərin həm nəzəri təhlilini, həm də praktiki həll yollarını ön plana çıxarır.

Aşağıdakı cədvəldə Azərbaycan nümunəsində regional inkişaf göstəricilərinin təhlili aparılmışdır:

**Cədvəl 1.** Regionlarda sosial-iqtisadi inkişaf göstəriciləri (2004-2023)

| *İllər* | *ÜDM artımı (%)* | *Regionlarda yaradılmış iş yerləri (min nəfər)* | *Yoxsulluq səviyyəsi (%)* | *İnfrastruktur layihələrinin sayı* |
|---|---|---|---|---|
| *2004* | 10.8 | 120 | 40.0 | 250 |
| *2008* | 9.3 | 260 | 15.8 | 670 |
| *2013* | 5.6 | 400 | 7.6 | 980 |
| *2018* | 1.5 | 520 | 5.1 | 1300 |
| *2023* | 2.8 | 610 | 4.6 | 1450 |

Cədvəl 1-də ÜDM artımı ilə yeni iş yerlərinin yaradılması arasında müsbət korrelyasiya müşahidə olunur, bu da dövlət proqramlarının real iqtisadi aktivlik yaratdığını göstərir. ÜDM artım tempi ilə yeni iş yerlərinin yaradılması göstəriciləri arasında yüksək müsbət asılılıq mövcuddur. Bu korrelyasiya, dövlətin həyata keçirdiyi regional inkişaf proqramlarının iqtisadi dinamikanı stimullaşdırmaqda və məşğulluq strukturunu yaxşılaşdırmaqda effektiv rol oynadığını təsdiqləyir.

Bir bölgə zamanla yeni imkanlar əldə etməklə inkişaf etdikcə onun məhsul portfelinə yeni məhsullar daxil olacaqdır. Sadəcə olaraq, müəyyən bir zamanda istehsal etdiyi məhsulların sayını hesablamaqla regional iqtisadi inkişaf qiymətləndirilə bilər. Bu, həm də iqtisadiyyatın "müxtəlifliyi" kimi tanınır [9, s.408]. Ümumilikdə, iqtisadiyyatın müxtəlif sahələrində formalaşan münasibətlərin tənzimlənməsi zamanı hüquqi mexanizmlərin bir vasitə kimi tətbiqi XX əsrin ikinci yarısından başlayaraq iqtisadçıların maraq dairəsinə daxil olmuşdur. Bu maraq xüsusilə rəqabətli mühitin yaradılması və qorunması, əmək bazarının nizamlanması, tarif siyasəti və beynəlxalq ticarət əlaqələrinin tənzimlənməsi sahələrində daha açıq şəkildə özünü göstərmişdir. Daha sonrakı mərhələlərdə hüququn tənzimləyici funksiyası, xüsusilə də onun məcburi icraedici xarakteri - iqtisadi münasibətlərin idarə olunmasında yeni və mühüm keyfiyyət meyarı kimi dəyərləndirilmişdir. Məhz bu səbəbdən, regionların sosial-iqtisadi inkişafı prosesində ortaya çıxan münasibətlərin hüquqi təminatının araşdırılması xüsusi əhəmiyyət kəsb edir. İqtisadi inkişafın davamlı şəkildə təmin olunması üçün təkrar istehsal prosesində mərkəzləşdirilmiş və desentral (qeyri-mərkəzləşdirilmiş) idarəetmə formalarının effektiv şəkildə koordinasiyası vacibdir. Dövlət hüquqi tənzimləmə tədbirlərini həyata keçirərkən regionların müstəqil inkişaf dinamikasını və onların sosial-iqtisadi problemlərinin kompleks şəkildə həllini nəzərə almalıdır. Başqa sözlə, müxtəlif idarəetmə səviyyələrində - istər mərkəzi dövlət orqanları, istərsə də bələdiyyələr arasında səmərəli qarşılıqlı fəaliyyət təmin edilməlidir [18]. Bu əməkdaşlıq regionların tarazlı iqtisadi inkişafına nail olmaq, regionlararası sosial-iqtisadi fərqləri minimuma endirmək və bütövlükdə ölkənin davamlı iqtisadi sabitliyini

qorumaq baxımından əhəmiyyətlidir. Ən vacib məsələlərdən biri də ondan ibarətdir ki, dövlət regionlarda mövcud olan təbii resurslar, maliyyə vəsaitləri, materiallar, əmək ehtiyatları və digər imkanlardan optimal istifadəni xüsusi diqqət mərkəzində saxlamalıdır. Bu yanaşma, həm makroiqtisadi məqsədlərin, həm də regional inkişaf prioritetlərinin reallaşdırılması üçün əlverişli zəmin yaradır. Bütövlükdə, fiskal şəffaflıq regionun orta hesabla ən çox irəliləyə biləcəyi idarəetmə sahəsidir. Şəffaflıq resursların necə toplandığını və xərcləndiyini təftiş etməyə imkan verir ki, bu da resursların daha səmərəli istifadəsinə və onların nəzərdə tutulandan kənara yönəldilməsi imkanının azalmasına gətirib çıxarır [11]. Makroiqtisadi səviyyədə qarşıya qoyulan əsas vəzifələrdən biri də ölkənin ərazi bütövlüyünün və sabitliyinin iqtisadi təməlini gücləndirmək, rəqabətədavamlı və müxtəlif sahələri əhatə edən iqtisadi sistem və bazar infrastrukturunu formalaşdırmaqdır. Regionlar arasında inkişaf səviyyəsində mövcud olan kəskin fərqlərin azaldılması və regionlararası əməkdaşlıq üçün bazar iqtisadiyyatının effektiv fəaliyyətinin təmin olunması mühüm əhəmiyyət kəsb edir. Sosial-iqtisadi məsələlərin planlı və məqsədyönlü şəkildə həll edilməsi də bu baxımdan xüsusi önəm daşıyır. Qeyd etmək lazımdır ki, sərbəst bazar sistemi bu problemləri hər zaman səmərəli şəkildə həll edə bilmir və belə hallarda hüquqi tənzimləmə vasitələrinin tətbiqinə ehtiyac yaranır [12]. Ölkənin davamlı iqtisadi inkişafını təmin etmək üçün regionların sosial-iqtisadi tərəqqisi əsas şərtlərdən biridir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, regional siyasət olmadan ölkə iqtisadiyyatının nə sabit, nə də dayanıqlı şəkildə yüksəlməsi mümkündür. Regional inkişaf məsələləri təkcə iqtisadi deyil, həm də sosial və institusional yanaşmalar tələb edir. Dövlətin həyata keçirdiyi makroiqtisadi siyasət regional səviyyədə də öz əksini tapmalı, mərkəzi və yerli idarəetmə orqanlarının fəaliyyəti bir-biri ilə əlaqələndirilməlidir. Hesab edirik ki, bu məsələdə əsas diqqət regionların təbii, əmək və maliyyə potensialından optimal istifadə olunmasına yönəlməlidir. Həmçinin, zəif inkişaf etmiş regionların inkişaf səviyyəsinin yüksəldilməsi, ümumi iqtisadi sistemin balanslı şəkildə formalaşması üçün vacib addımdır [2].

Almaniya və İsveç kimi desentral idarəetməyə malik ölkələrdə regionlararası gəlir fərqi 0.18-0.19 aralığındadır. Bu, balanslı regional siyasətin sosial bərabərliyi qoruduğunu göstərir. Azərbaycanda bu göstərici 0.22-yə qədər azalıb, bu da 2000-ci illərin əvvəllərindəki 0.32 səviyyəsindən əhəmiyyətli irəliləyiş deməkdir. Cənubi Koreya kimi mərkəzləşdirilmiş, lakin innovasiyaya əsaslanan model tətbiq edən ölkələrdə isə regionlararası fərqlər az olsa da, dövlətin rolunun yüksəkliyi müşahidə olunur. Polşa və Türkiyə Avropa İttifaqı struktur fondları və dövlət proqramları vasitəsilə regionlararası bərabərlik siyasətini həyata keçirir. Bu ölkələrdə regional investisiyanın ÜDM-də payı 25-27% civarındadır.

Regional inkişaf planlarının hazırlanması yalnız iqtisadi deyil, həm də hüquqi və institusional baxımdan kompleks yanaşma tələb edir. Müasir dövrdə bu sahədə həm mərkəzləşdirilmiş, həm də əks-mərkəzləşdirilmiş idarəetmə modellərinin tətbiqi vacibdir. Hər iki modelin üstün cəhətləri düzgün şəkildə sintez olunarsa, daha effektiv nəticələr əldə etmək olar. Eyni zamanda, regionlararası fərqlərin azaldılması, əmək bazarının səmərəli təşkili, sosial rifahın artırılması və investisiya mühitinin yaxşılaşdırılması üçün hüquqi tənzimləmə alətləri

də ön planda olmalıdır. Bazara əsaslanan iqtisadi sistem bəzən sosial-iqtisadi problemlərin həllində yetərli olmur və bu zaman dövlət müdaxiləsi - xüsusilə hüquqi və institusional müdaxilə qaçılmaz olur. Regional siyasət dövlətin ümumi iqtisadi strategiyasının ayrılmaz tərkib hissəsi olmalı, ölkənin iqtisadi sabitliyi və ərazi bütövlüyü baxımından xeyli əhəmiyyət daşımalıdır. Bu siyasət yalnız planlaşdırma ilə deyil, onun ardıcıl icrası və davamlı monitorinqi ilə müşayiət olunmalıdır ki, uzunmüddətli, balanslı və ədalətli inkişaf təmin olunsun [16].

**Cədvəl 2.** Bəzi ölkələrin regional inkişaf göstəricilərin müqayisəsi

| Ölkə | Regional inkişaf indeksi (0-1) | Regionlararası gəlir fərqi (Gini əmsal) | Məşğulluq səviyyəsi (%) | Regional investisiyanın ÜDM-də payı (%) | İdarəetmə modeli |
|---|---|---|---|---|---|
| **Azərbaycan** | 0.62 | 0.22 | 94.1 | 22.4 | Hibrid (mərkəzləşdirilmiş + yerli) |
| **Almaniya** | 0.87 | 0.19 | 96.2 | 30.1 | Desentral (federal) |
| **Cənubi Koreya** | 0.81 | 0.21 | 95.7 | 28.3 | Mərkəzləşdirilmiş-innovativ |
| **İsveç** | 0.89 | 0.18 | 97.0 | 33.4 | Desentral (regional özünüidarə) |
| **Türkiyə** | 0.71 | 0.26 | 92.8 | 24.6 | Yarı-mərkəzləşdirilmiş |
| **Polşa** | 0.77 | 0.23 | 94.8 | 26.7 | Desentral (AB struktur fondları ilə) |

**Qeyd:** Göstəricilər 2023-2024-cü illər üzrə Dünya Bankı və OECD məlumatlarının orta qiymətlərini əsasında hazırlanmışdır

**Nəticə.** Araşdırmalar və təhlillər göstərir ki, ölkənin dayanıqlı inkişafı və sosial rifahının təmin olunmasında regional siyasət həlledici rol oynayır. İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, yalnız mərkəzi iqtisadi göstəricilər əsasında deyil, həm də regionların tarazlı və koordinasiyalı şəkildə inkişafı vasitəsilə ümumi iqtisadi güc və milli rifah səviyyəsi artırıla bilər. Regionların inkişafı ölkə iqtisadiyyatının mühərriki kimi çıxış edir və burada əsas diqqət regionlararası bərabərsizliklərin azaldılması, zəif inkişaf etmiş ərazilərin potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi, resursların səmərəli istifadəsi və əhalinin sosial təminatının yüksəldilməsinə yönəlməlidir.

Məqalədə əsas elmi nəticələr kimi aşağıdakı məsələlərin önə çıxdığını vurğulamaq istəyirik:

- Məqalədə təkcə iqtisadi deyil, həm də hüquqi və institusional tənzimləmə mexanizmlərinin qarşılıqlı əlaqədə öyrənilməsi mümkün olur;
- Keyns multiplikator modelinin region səviyyəsində investisiyaların və sosial təsirlərin qiymətləndirilməsi üçün istifadə olunması göstərilir:

- Mərkəzləşdirilmiş və əks-mərkəzləşdirilmiş idarəetmə modellərinin sintez ideyası kimi onların üstünlüklərinin birləşdirilərək "hibrid" idarəetmə modelinin formalaşdırılması təklif olunur;

- Regional inkişafda hüquqi tənzimləmə və şəffaflıq mexanizmlərinin rolu ön plana çəkilir;

- Regional siyasətin təkcə iqtisadi artımı deyil, həm də sosial birliyi və ərazi bütövlüyünü təmin edən vasitə kimi şərh edilir.

Hesab edirik ki, regional inkişaf siyasəti yalnız iqtisadi göstəricilərin idarə olunması ilə məhdudlaşmamalı, iqtisadi, sosial və hüquqi komponentlərin inteqrasiyasına əsaslanan kompleks sistem kimi qurulmalıdır. Təklif olunan "Hibrid Regional İnkişaf İdarəetmə Modeli" mərkəzi və yerli səviyyədə idarəetmənin ən yaxşı xüsusiyyətlərini birləşdirir, nəticədə resursların optimal bölgüsünü, regionlararası balansı və sosial ədaləti təmin edən çevik idarəetmə sistemi yaradır. Bu modeldə innovasiya və investisiya fəaliyyətinin qiymətləndirilməsi üçün multiplikativ təsir göstəricisi əsas indikator kimi çıxış edir. Beləliklə, regional siyasətin effektivliyinin artırılması yalnız maliyyə axınlarının yönləndirilməsi ilə deyil, həm də elmi əsaslı, hüquqi və institusional cəhətdən səmərəli idarəetmə mexanizmlərinin qurulması ilə mümkün olur. Bu baxımdan, dövlətin regional siyasəti yalnız iqtisadi göstəricilərin idarə olunması ilə kifayətlənməməli, həmçinin sosial ədalət, institusional səmərəlilik və hüquqi tənzimləmə mexanizmlərini də özündə birləşdirməlidir.

Məlumdur ki, regionlar iqtisadi, sosial, təbii və coğrafi baxımdan fərqlənir. Bu fərqliliklər dövlətin müdaxiləsini və fərqli yanaşmaların tətbiqini zəruri edir. Zəif inkişaf etmiş regionlarda mövcud olan təbii resurslar, ucuz əmək qüvvəsi, əlverişli coğrafi mövqe və infrastruktur imkanları kompleks şəkildə iqtisadi dövriyyəyə cəlb edilməli, investorlar üçün cəlbedici mühit yaradılmalıdır. Bu isə bir tərəfdən daxili istehsalın və məşğulluğun artmasına, digər tərəfdən isə regionlardan paytaxt və iri şəhərlərə olan miqrasiyanın azalmasına gətirib çıxarar. Eyni zamanda, dövlətin regional siyasəti yalnız makroiqtisadi idarəetməyə əsaslanmamalı, əksinə yerli özünüidarəetmə orqanları ilə birgə işləyən, desentral idarəetmə mexanizmlərinə də əsaslanan çevik və effektiv sistem formalaşdırmalıdır. Regionların inkişafını tənzimləyən hüquqi mexanizmlərin formalaşdırılması da olduqca vacibdir. Rəqabət mühitinin qorunması, əmək bazarının tənzimlənməsi, xarici ticarət və tarif siyasəti, sahibkarlığın təşviqi kimi sahələrdə hüququn rolu getdikcə artır. Hüquqi tənzimləmə təkcə sərt icra vasitəsi deyil, eyni zamanda iqtisadi sabitliyin, şəffaflığın və bərabər imkanların təminatçısı kimi çıxış edir. İdarəetmə sahibkarlığı ətraf mühitin mühafizəsi və selektiv miqrasiya, iqtisadi tənəzzül və ya alçaldılma kimi problemlərdən təsirlənən yerlər üçün xüsusilə vacib ola bilər [8, s.553]. Nəticə olaraq demək olar ki, uğurlu regional inkişaf siyasəti - ölkənin iqtisadi sabitliyinin, sosial ədalətin və milli rifahın əsas təminatçısıdır. Bu siyasətin planlı şəkildə hazırlanması, elmi əsaslarla qurulması, hüquqi və institusional baza ilə möhkəmləndirilməsi, mərkəzi və yerli səviyyədə səmərəli şəkildə tətbiq olunması vacibdir. Belə bir yanaşma yalnız

iqtisadi göstəricilərin yaxşılaşdırılması ilə kifayətlənməyəcək, həm də ölkənin ərazi bütövlüyünün, sosial birliyinin uzunmüddətli şəkildə qorunmasına xidmət edəcəkdir.

**Ədəbiyyat**


1. Alayev E.B. (2000), Regional İnkişafın Nəzəri Əsasları. Bakı: Elm.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı, 2003-2008-ci illər, 11 fevral 2004-cü il.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı, 2009-2013-cü illər, 14 aprel 2009-cu il.
4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı, 2014-2018-ci illər, 27 fevral 2017-ci il.
5. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafına dair Strateji Yol Xəritəsi, 6 dekabr 2016-cı il.
6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi, 6 dekabr 2016-cı il.
7. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci il.
8. Döringer S. (2020), Governance entrepreneurship in regional economic development: Individual agency in Austria. Regional Studies, Regional Science, Vol.7, No.1, 550-567. https://doi.org/10.1080/21681376.2020.1842801
9. Frenken K., Neffke F., Van Dam A. (2023), Capabilities, institutions and regional economic development: A proposed synthesis. Cambridge Journal of Regions, Economy and Society, Vol.16, No.3, 405-416. https://doi.org/10.1093/cjres/rsad021
10. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanunu, 13 yanvar 1995-ci il.
11. Jarvis M.C.J., Pierre M.G., Baduel M.B., Fayad D., de Keyserling A., Sarr M.B., Sumlinski M.A. (2021). Economic governance reforms to support inclusive growth in the Middle East, North Africa and Central Asia. International Monetary Fund. https://doi.org/10.5089/9781513520759.087
12. Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikası Qanunu, 4 iyun 1999-cu il.
13. Qasımov Ə.C., İsrafilov H.A., Hacızadə E.M., Ağayev E.A. (2006), Regionların Sosial-İqtisadi İnkişaf Problemləri. Bakı.
14. Needleman L. (1968), Regional Analysis. Penguin Books.
15. Некрасов Н.Н. (1998), Основы Социально-Экономической Географии. Москва: Наука.
16. Nijkamp P. (1987), Handbook of Regional and Urban Economics. Elsevier.
17. Nuriyev Ə. (2007), Regional İdarəetmənin Əsasları. Bakı.
18. Nuriyev Ə. (2011), Regional Siyasət və İdarəetmənin Əsasları. Bakı.

19. Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 3 mart 2014-cü il.
20. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanunu, 15 dekabr 1992-ci il.
21. Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında Azərbaycan Respublikası Qanunu, 2 iyul 2013-cü il.
22. Volosiuk M., Monastyrskyi G., Sirenko I., Fedenchuk S., Kisilevych V. (2024), The ınteraction between regional policy and economic development. Economic Affairs, Vol.69, 381-388.